# MƏDƏNİYYƏT XADİMLƏRİNİN ZƏFƏR DÜŞÜNCƏLƏRİ...



*İşğal tariximizin nəhayət ki ərazi bütövlüyü tarixi ilə əvəzlənməsi, SSRİ-nin dağılması kimi miqyaslı ictimai-siyasi dəyişikliklərin törətdiyi qarışıqlıqları fürsət bilib Dağlıq Qarabağ və ətraf yeddi rayonu təcavüzə məruz qoyan Ermənistana öz yerini göstərməyimiz, əzəli torpaqlarımızı azad etməyimiz, bir sözlə, son dərəcə arzuladığımız haqqın təntənəsi hər birimizdə hansı duyğuları, hansı anımları, hansı təəssüratları, hansı düşüncələri doğurdu? Bir igidin ömrü boyda böyüyüb bizləri və dostlarımızı fərəhləndirən bu işıqlı hadisənin mədəniyyətimizdə açacağı səhifədə nələrin yazılacağını təsəvvür edirsiniz?*

*Görkəmli mədəniyyət xadimlərimiz bu mövzuda duyğu və düşüncələrini oxucularımızla bölüşür..*

## ƏBƏDİYYƏT SİMFONİYASI



*Xalq artistləri*
*Fidan və Xuraman Qasımovalar*

“Azərbaycan xalqı haqq naminə öz dədə-baba torpaqlarını işğaldan azad etməyə qalxdı. Ordumuz qarış-qarış torpaqlarımızı işğaldan azad etməyə başladı. Onlar Qarabağ torpağının və Azərbaycanın mədəniyyət beşiyi sayılan Şuşa şəhərinə çatarkən biz göz yaşlarımızı saxlaya bilmədik. Axı Şuşa xalqımıza böyük ictimai, siyasi və mədəniyyət xadimlərini bəxş edib. Şuşanın azad olunmasını xalq səbirsizliklə gözləyirdi. Dəfələrlə müxtəlif televiziya kanallarında çıxış edərək demişdik ki, biz möhtərəm Ali Baş Komandanımıza arxalanırıq, ona və qəhrəman ordumuza inanırıq. Zəfər bizim olacaq. Elə də oldu. Çünki bizim savaşımız haqq savaşıdır.

Eşq olsun Azərbaycan xalqına, eşq olsun ulu öndər Heydər Əliyevin layiqli davamçısı olan Prezidentimiz və Ali Baş Komandanımıza, eşq olsun şanlı ordumuza!.

İndi qəhrəman ordumuzun cəsur hərbçilərinə, onların sağlığının keşiyində dayanan şəfqət bacılarına, hərbi həkimlərə dastanlar həsr olunacaq, əsərlər yazılacaq, heykəllər qoyulacaq. Qarabağın gözəl təbiətli bölgələrində yaradıcı tədbirlər keçiriləcək. Möhtərəm Prezidentimiz, Sizi və Mehriban xanımı Allah qorusun!”

# QARABAĞ AZƏRBAYCANDIR

*Xalq artisti*
*Fərhad Bədəlbəyli:*



“Bu il nə qədər ağır keçsə də, bütün azərbaycanlılar üçün tarixi il oldu. 200 il idi ki, biz ərazilərimizi itirirdik - İrəvan xanlığı, Şəki xanlığı, Quba xanlığı, Qarabağ xanlığı... İki əsr idi ki, Azərbaycan əzəli torpaqlarından məhrum olmaq acısını yaşamaqda idi. Amma Vətən müharibəsi bizə çox önəmli, əziz, tarixi günlər bəxş etdi. Müzəffər Ordumuzun əsgər və zabitlərinin sevimli Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi altında qazandığı qələbə bütün dünyada böyük əks-səda doğurdu. Çünki ən azı Şuşanın işğaldan azad edilməsi hərb tarixinə əlahiddə manevr kimi yazılan və sonrakı nəsillərin öyrənəcəyi bir şücaət idi. Bizim məhmətciklərimiz tarixi qələbənin müəllifi oldular. Əlbəttə, hər bir azərbaycanlı qarabağlıdır. Amma şüşalılar üçün Şuşanın işğaldan azad edilməsi sözlə ifadə oluna bilməyən fərəhdir. Mən təsəvvür etmirdim ki, yenidən Şuşanı görəcəm, bir daha qarlı Şuşanın əsrarəngizliyinə qərq olacam. Sonuncu dəfə 1981-ci ildə Şuşada Molla Pənah Vaqifin məqbərəsinin açılışında olmuşam və Şuşa yadımda qış nağılı kimi qalmışdı. Sağ olsun Ali Baş Komandan və müzəffər ordumuz ki, bu nağılı

gerçəkləşdirdi - indi biz televiziya ilə gerçək videoreportajları seyr edib həm sevincdən, həm də şəhidlərimizə görə kədərdən ağlayırıq. Təəssüf ki, qələbə itkisiz olmur. Əfsuslar olsun.

Şəhidlərimizin ailəsinin hüznü hamımızın hüznüdür, hər birimiz onlara bacardığımız qədər dayaq olmalıyıq! - Cənab Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva başda olmaqla bütün xalqımız bunu elə belə də qəbul edir.

İşğaldan qurtulmuş torpaqlarımıza isə bundan sonra daha tez-tez getməliyik. Əvvəllər yalnız yay aylarında oralara üz tuturduqsa, bundan sonra belə olmamalıdır; ilboyu vaxtaşırı həmin ərazilərə baş çəkməli, müxtəlif layihələr gerçəkləşdirməliyik. Nəzərdə tutmuşuq ki, "Xarı bülbül" festivalını bərpa edək. Başqa festivallara start vermək, yeni musiqi məktəbinin inşası və ümumiyyətlə, müxtəlif folklor festivallarını Qarabağ torpağında keçirməliyik. Xüsusən Şuşanın önəmini bir an belə unutmamalıyıq, layihələrin əksəriyyəti məhz mədəniyyətimizin, mənəviyyatımızın bu əvəzsiz beşiyi ilə bağlı olmalıdır. Eləcə də təbii ki, Füzuli ilə, Cəbrayılla , Ağdamla, Zəngilanla, Qubadlı ilə, Kəlbəcərlə, Laçınla bağlı davamlı və yüksək səviyyəli mədəniyyət layihələrinin başlaması mütləqdir. O rayonların hər birinin özəlliyi nəzərə alınmaqla yeni, əvvəlkindən daha mükəmməl mədəni ab-hava yaratmalıyıq. Bizi böyük işlər gözləyir. Ümid edirəm ki, artıq gələn ildən bu işlərin icrasına başlayacayıq. Hamımızı təbrik edirəm!

# QARABAĞ AZƏRBAYCANDIR!



*Teatrşünas-tənqidçi, professor*
*Aydın Talıbzadə*

"Fərəh, fəxr, qürur, inam! Mən həmişə demişəm, indisə Sizin jurnal üçün rəsmi şəkildə bunu dilə gətirirəm: Azərbaycan müqəddəs məkandır, qutsal məkandır, tanrılar, xeyirxah ruhlar tərəfindən qorunan bir məkandır. Hələ lap qədim çağlardan hindlilər Azərbaycana ziyarətə gəliblər, pak oda tapınmağa gəliblər, zəvvar olub piyada gəliblər. Azərbaycanda hara baxırsan, istər Bakı, Şamaxı, Quba, Qax, Oğuz olsun, istər Naxçıvan, Ordubad, Gəncə, Lənkəran, Qarabağ, hər istiqamətdə pir, ocaq, tapınaq, övliya türbəsi görürsən, dərvişlərin, mürşidlərin, peyğəmbər nəsli nümayəndələrinin məzarları ilə üzləşirsən. Şirvanşahlar sarayı kimi təqdim edilən tarixi bir abidə, əslində, xəlvətiyyə sufi qardaşlığının şeyxi Seyid Yəhya Bakuvi üçün şirvanşahların tikdirdiyi pak bir xanəgahdır.

Azərbaycanı bir yandan Əshabi-Kəhf, bir yandan da çoxsaylı sakral nişanələrə malik Qız Qalası məbədi mühafizə eləyir. Müqəddəslərin ruhları dolaşır Azərbaycanda: bura heç kimsə toxuna bilməz. Bizim torpaqlara nə qədər işğalçı basqınlar olub. Amma yadellilər burda qala bilməyiblər, qalmağa qala tikə bilməyiblər, torpağı əkib-becərə bilməyiblər, özlərilə də heç nə götürüb gedə bilməyiblər. Azərbaycan yenə azərbaycanlılara qalıb. Çünki Azərbaycan boyda bir Azərbaycan da yerin altında var: bax, ordadır bizim enerjimizin, gücümüzün, alicənablığımızın mənbəyi.

Azərbaycan çox böyükdür: Təbrizdən Dərbəndə kimi. Lakin biz heç nəyə iddia etmirik, bəziləri kimi xam xəyallar qurmuruq, dünyanın reallıqları ilə barışırıq, keçən yüzildə İran, Rusiya, Türkiyə kimi qonşularımızla şərtləndirilmiş sərhədlər çərçivəsindən kənara çıxmırıq, soydaşlarımızı fiks ideyaların girovuna çevirmirik. Ona görə mən sonsuza qədər şadam ki, Azərbaycan torpaqları 44 gün ərzində həm Azərbaycan ordusunun əzmkar qələbələri, həm də Azərbaycan Prezidentinin apardığı balanslaşdırılmış uğurlu xarici siyasətin nəticəsində geri alındı, Azərbaycan ədalətli bir mübarizə apardığını dünyaya, nəhayət ki, sübut elədi.

Amma 44 günlük Vətən müharibəsi dönəmində azərbaycanlıların yaşantılarını dilə gətirmək çox çətindir: sevinc, təbəssüm, göz yaşları, qürur, qəhər, nifrət, qəzəb, rəhm... bir sözlə, duyğular, hisslər, emosiyalar burulğanı və ən əsası torpağa, Vətənə sevgiylə Azərbaycan bayrağı kimi, Xəzər kimi çırpınan bir ürək...

İndi biz həmin bu ürəyi ovcumuzun içinə götürüb, onu məşələ döndərib azad edilmiş torpaqlarımıza aparmalıyıq və bu regionun mədəni proseslərə sürətli inteqrasiyasını təmin etməliyik. Heç şübhəsiz ki, Şuşa çox yaxın zamanlarda musiqi, teatr, təsviri sənət üzrə keçiriləcək beynəlxalq festivallara ev sahibliyi edəcək. Nədən ki, Şuşa ənənəvi olaraq həmişə Azərbaycanın mədəniyyət mərkəzlərindən biri sayılıb. Sırf teatr sənətilə bağlı onu söyləməliyəm ki, bu bölgələrdə ətraf mühit teatrının imkanları nəzərdən keçirilə bilər. Həmin bu zonaların təbii landşaftından, tarixi memorial abidələrindən, hətta dağıntılarından, sosial infrastrukturundan yararlanmaqla tamaşalar qurmaq və orada teatr mühitini dirçəltmək, yerli camaatın zövq prioritetlərini öyrənmək mümkündür. Bu gün qlamur teatrlar artıq dəbdən çıxır, teatr özünü daha sərbəst formalarda tapmağa çalışır, stasionar divarlarını tərk etməyə meylənir, özünün tribuna olmaq missiyasından imtina edir. Ona görə də teatr hansı formada olursa olsun, bölgənin təbiət harmoniyasını, sosial mühitini, mental və ruhsal ənənələrini yansıtmalıdır ki, yerli camaatın istəklərinə, yaşantılarına, problemlərinə, düşüncələrinə adekvat olsun.

Mən Sizin sualınız müstəvisində bir neçə məsələni xüsusilə vurğulamaq istərdim. Əvvəla onu deyim ki, Azərbaycan televiziyası 44 günlük Vətən müharibəsini 27 sentyabrdan başlamış ta 10 dekabrda keçirilən Zəfər Paradına qədər bütün kontekstlərilə bərabər, bütün təfərrüatları ilə birgə informativ-emosional təhkiyə və görüntü bloklarında bizim hamımızın evinə gətirdi, qələbə tarixini anbaan panoramlaşdırdı. Xalq televiziya ekranı qarşısında nəfəsini içinə çəkib cəbhə xəbərlərini ruhuna, canına, qanına hopdururdu, Azərbaycan Prezidentinin çıxışlarını, müxtəlif informasiya agentliyi nümayəndələrinin suallarına onun verdiyi dəqiq, sərrast, məntiqli cavabları dinləyə-dinləyə öz xoşbəxtliyinə qovuşurdu. Xoşbəxt müharibələr olmur. Amma biz müharibə apara-apara xoşbəxt idik, çünki bütün varlığımızla, ölməyə belə hazır ola-ola yalnız torpaqlarımıza qayıtmağı arzulayırdıq. Təbii ki, bizim möhtəşəm qələbəmizin polifoniyasını istər bədii kinonun ekranına, istərsə də teatr səhnəsinə gətirmək böyük istedad, epik təfəkkür, düşüncə masştabı tələb eləyəcək.

İkincisi: mən qələbəmizdən öncə bu barədə açıq danışa bilməzdim, məni səhv başa düşərdilər, məndən inciyərdilər. İş bu ki, 1990-cı ildən üzü bəri Qarabağ mövzusu ilə bağlı Azərbaycan teatrlarının səhnəsində nə görmüşüksə, gördüyümüz əksər hallarda «ağı» versiyasında olub; indi də mümkün ki, bundan sonra nə görəcəyiksə, «parad» versiyasında olacaq. Əslində isə sənət qütbləri sevmir, plakatçılığı, şüarçılığı sevmir. Əgər

plakatı ümumi tendensiyanı obrazlaşdırmaq maraqlandırırsa, sənəti insanın fərdi ekzistensiyasının obrazını yaratmaq maraqlandırır. Heç şübhəsiz, çağdaş dövrümüzdə Azərbaycanın total qələbəsindən, müasir hərb tarixinin yeni səhifəsi kimi açılmış qələbəsindən çoxsaylı hekayələr, romanlar, pyeslər yazılacaq və bəlkə də artıq yazılır. Lakin biz gərək unutmayaq ki, bədii əsərdə yalnız fərdi ekzistensiya, fərdi yaşantılar şəbəkəsində əks etdirilmiş olaylar, hadisələr, konfliktlər oxucuya, tamaşaçıya emosional təsir göstərmək iqtidarında olur.

Hələlik, bu qədər, pandemiyadan sonra teatrlarda görüşmək ümidilə.»

# QARABAĞ AZƏRBAYCANDIR



*Xalq artisti, professor Fərəc Qarayev*

"Sözün düzü, hər bir azərbaycanlı üçün belə sual kifayət qədər sadəlövh görünə bilər. Lütfən, deyin, məgər biz bu gün fəxr, heyranlıq və sevincdən savayı hansısa başqa hisslər keçirə bilərikmi?

Artıq üç on illiyə yaxın idi ki, Azərbaycan BMT Təhlükəsizlik Şurasının qətnamələrində nəzərdə tutulmuş tələblərin təcavüzkar, işğalçı ölkə tərəfindən yerinə yetirilməsini gözləyirdi. Lakin gözləntilər özünü doğrultmadı. Və səbr kasamız dolub-daşanda nə baş verəcəkdisə baş verdi - 44 günlük müharibə 10.000 günün iztirab və alçaldılmalarının tamamilə əvəzini çıxdı. Düşünürəm ki, bu ovqat dərhal bir çox yaradıcı insanları müvafiq sənət təzahürünün müəllifi kimi çıxış etməyə, bu gün bütün Azərbaycan xalqının ürəyinə və beyninə hakim kəsilən duyğu və fikirləri ədəbiyyatın, musiqinin, rəngkarlığın "dili" ilə əbədiləşdirməyə həvəsləndirib. Belə bir fikir mənim də ağlımdan keçdi və hətta yeni partitura yazmağa başlayacaqdım. Lakin əl saxladım! Və indi əminliklə deyə bilərəm ki, zəfərimiz hər bir müəllifdən planlarını düşünüb-daşınaraq dərk etməyi, müstəsna yaradıcı məsuliyyət və ciddi özünənəzarət tələb edir. Başqa cür mümkün deyil! Çünki fəda edilmiş həyatların qiyməti hər hansı dəyərə sığmaz, zəfərimizin qiyməti ölçüyəgəlməzdir."

# QARABAĞ AZƏRBAYCANDIR!



*Teatrşünas-tənqidçi, professor İlham Rəhimli*

Taleyimdə çox az günlər var ki, yaddaşıma əbədi həkk olub. Bu həkkolmaların hamısı şəxsi xarakter daşıyır; bilavasitə özümlə, ailəmlə, az-çox güvəndiyim yaradıcılığımla bağlıdır. 44 günlük Vətən müharibəsinin Qarabağ təntənəsi, Qarabağ zəfəri, Qarabağ sevinci mənim və milyonların ömür yaddaşına qranit əzəməti ilə həkk olundu.

Bu zəfər hər bir azərbaycanlı kimi mənim də Vətən qarşısındakı namus borcuma çıraq tutdu.

Bu zəfər hər bir azərbaycanlı kimi mənim də Vətən qürurumu, Vətən sevgimi, vətən müqəddəsliyinə inamımı özümə qaytardı.

Bu zəfərlə də daxilimdə sıxıntı keçirən, həzinliklə qəlbimi titrədən Vətən sevgimi özümə qaytardı. Qaytardı və indi inamla, qürurla, sevincdən qanad taxan həsrətlə hayqırıram ki, mən Azərbaycanam! Azərbaycan Qarabağdı! Mən də Qarabağam!!!

Mən Yevlaxda doğulmuşam. Ancaq heç bir yaşım tamam olmamışdan beş il ard-arda Kəlbəcərin İstisuyuna yaylağa getmişik. Çadır qurub möcüzəli yaylaq havası udmuşuq. Sonralar müxtəlif illərdə Qoç daşda, Gəlin qayasında, Qotur suda, Dəli dağda, Yanşaqda, Ceyran bulağında yaylamışıq.

Necə-neçə il yayda Şuşada ev tutub üç ayı arandakı qorabişirən, şaxıyıb adamı qorğa kimi qovuran istidən uzaqlaşıb cənnətməkan sakini olmuşuq. Şuşa ilə Laçının arasında yerləşən Turşsuda çadır qurmuşuq. Və sübh tezdən çadırdan çıxanda dağların yaxasında naxışlanan palıd ağacları gözümüzü, ruhumuzu oxşayıb. Laçınlı dostlarımla Minkənddən vurub Şəlvə dərəsindən çıxmışıq. Həkərinin bu başından o başına şehli çəməndə ayaqyalın getmişik. Dağ çiçəklərinin öpüşləri dabanlarımızda iz qoyub. Qara göldə laçınlı sağıcıların kor dumanda eydirmə söyləmələrinə qulaq asmışam. Dağ adamları bilirlər, kor dumanda inək südünü sıxır. Onda sağıcılar birbirinin üzünü görmədən xorla, ecazkar ritmlə eydirmənin tərənə düzümünə minbir naxış vururlar. Bu, ilahi bir nəğmədi, xəyalımızı, emosional duyğularımızı qanadlarına alıb bu dünyada olmayan möcüzə təsiri oyadan aləmə aparan ovqatdır...

Vətən zəfəri mənə yaddaş dumanımda azmış uşaqlığımı və gəncliyimi, bu yaşlarımın sehrini, sirrini, müqəddəsliyini və elə indi də dərk edə bilmədiyim munisliyini, zərifliyini və sehrini qaytardı.

Əziz əsgər! Bu xoşbəxtliyi qeyrətin, təpərin, cilasunluğun, cəsarətin, mərdliyin ilə mənə bəxş etdiyin üçün düşmənlə üz-üzə gələndə əlindəki silahın tətiyindəki titrəməyən barmaqlarından öpürəm.

Qələbə zəfərinin sevinci ilə Qarabağdan bütün yurdumuza yeni körpülər yol alacaq. Həmin körpülərin ən möhtəşəmi, məncə, mədəniyyət körpüsü olacaq. 30 il Qarabağın köksündə mürgüləyən yeni-yeni saz-söz sənəti, xanəndəliyin yeni sirləri, xalçaçılarımızın möcüzəli ilmələri, dulusçularımızın göz oxşayan əl işləri, sazbəndlərimizin əlindən nur içən tavar sazlarımızın nəğmələri mənəvi ruhumuza yeni-yeni incilər bəxş edəcək. Qarabağ qürurla sinəsini gen açıb söz-sənət ustalarımızı bağrına basacaq. Möhtəşəm Qələbə zəfərimiz əzəmətli mədəniyyət tədbirləri ilə qovuşub ruhlarımızı oxşayacaq. Mədəniyyət bayramımız Cıdır düzündə əbədiyyət simfoniyasına ev sahibliyi edəcək.

# QARABAĞ AZƏRBAYCANDIR! ❖

**Samirə Behbudqızı**